## *Siyasi partiyalar Prezident İlham Əliyevi birləşdirici lider kimi qəbul edirlər:*

# "200 illik problemi 44 gündə həll edən sərkərdə"



Prezident İlham Əliyev ötən 19 il ərzində xalqın etimadını, sevgisini qazana bilib, müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiqliyini sübut edib. Eyni zamanda ata vəsiyyətini yerinə yetirərək Qarabağı erməni işğalından azad edib, ərazi bütövlüyümüzün təminatına nail olub.

Siyasi partiyaların rəhbərləri Prezident İlham Əliyev barədə fikirlərini qəzetimizə bildiriblər.

### Prezident öz vəzifəsinə ali vasitə kimi yanaşır

**Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı** deyib ki, 19 illik zaman kəsiyində xalqımızın iradəsinə və etimadına arxalanan Prezident İlham Əliyev Ulu Öndərin təməl siyasi prinsiplərinə əsaslanaraq, respublikamızı regionun simasını dəyişən aparıcı dövlətinə çevirib: "Prezident beynəlxalq təşkilatların və güc mərkəzlərinin qlobal geosiyasi və geoiqtisadi hədəflərini milli maraqlarımıza uzlaşdırıb. Bunun konkret siyasi dividendləri özünü büruzə verir. 2003-cü ildən etibarən yüksək işgüzarlıq və işləyi komandaya malik dövlət başçımız qarşıda duran prioritet vəzifələri düzgün müəyyənləşdirməklə yeni dövrün ən səciyyəvi cəhəti kimi ilk növbədə milli iqtisadiyyatda struktur islahatlarına başlayıb, kəmiyyət dəyişikliklərini keyfiyyət dəyişiklikləri müstəvəsinə keçirməyin zəruriliyinə xüsusi üstünlük verib. Sosialyönümlü siyasət yürüdən Prezident qəbul etdiyi fundamental qərarlar və imzaladığı sərəncamlarla xalqın mənafeyindən çıxış etdiyini təsdiqləyib, vədlərinin əməli fəaliyyətə söykəndiyini hər zaman sərgiləyib. İlham Əliyev ictimai həyatın bütün sahələrində yeni dövrün tələblərinə uyğun islahatların aparılması, qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin artırılması, regionların proporsional inkişafı, yeni istehsal müəssisələrinin açılması ilə işsizlik probleminin aradan qaldırılması istiqamətində effektiv nəticələrə həsablanmış cəsarətli addımlar atıb".

Partiya sədri bildirib ki, Ulu Öndərin əsasını qoyduğu xarici siyasət kursunun ötən 19 ildə davam etdirilməsi, ABŞ və Rusiya kimi böyük dövlətlər, Avropa Birliyinin aparıcı ölkələri və qardaş Türkiyə ilə münasibətlərin inkişaf etdirilməsi, türk dövlətləri ilə əməkdaşlığın genişləndirilməsi nəticə etibarilə Azərbaycanın beynəlxalq münasibətlərinin gündən-günə güclənməsinə mühüm töhfələr verir. Onun sözlərinə görə, dövlətimizin xarici siyasəti Heydər Əliyev dövründə olduğu kimi, bu gün də qarşılıqlı əməkdaşlığa, Azərbaycanın milli maraqlarına təmin edən addımlara əsaslanır.

"Əlbəttə, ölkəmizin davamlı və dinamik inkişafına nail olmadan, güclü iqtisadiyyat formalaşdırmadan, cəmiyyətin immunitetini möhkəmləndirmədən, sosial ədalət prinsiplərini bərqərar etmədən dövlətimizin beynəlxalq səviyyədə nüfuzunu tam təmin etmək mümkün olmazdı. İlham Əliyev Prezidentlik dövründə bütün bunları çox böyük məharətlə həyata keçirir. Paralel olaraq, uzun illər dünya miqyasında Azərbaycanı, onun türk soyunu hədəfə alıb şər və böhtanla, pulla ələ aldığı beynəlxalq şəbəkə vasitəsilə aşağılayan, haqqında mənfi rəy formalaşdıran dünya erməniliyinin saxta ideologiyasını alt-üst etmək üçün mühüm addımlar atır. Məhz Prezident İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində Bakı qısa vaxtda dünya sivilizasiyasının dialoq və əməkdaşlığa xidmət edən qlobal forumlarına evsahibliyi edən məkana çevrilib. İlham Əliyev prezidentliyinin ilk günündən başlayaraq ermənilərin işğal etdikləri torpaqlarımızın bir qarışının belə güzəştə gedilməyəcəyini bildirib və qətiyyətini ortaya qoyub və bu mövqeyinə 44 günlük Vətən müharibəsi sona çatana qədər də sadiq qalıb", - deyə deputat qeyd edib.

F.Ağamalı deyib ki, Ali Baş Komandan Vətənimizi 200 illik məğlubiyyət sindromundan azad etdi: "İlham Əliyev Azərbaycan tarixinə əbədi olaraq müzəffər qəhrəman, xilaskar, qətiyyətli sərkərdə və qalib diplomat kimi adını yazdırdı. Yeni tarix yazdı, BMT-nin, keçmiş Minsk qrupunun uzun illər ərzində edə bilmədiyini reallaşdırıb erməni faşizmini, onun ordusunu və saxta ideologiyasını darmadağın etdi. Dünyanı dəyişən, XX yüzilliyin şəriksiz lideri zirvəsinə ucalan İlham Əliyevin iradəsi, şəhidlərimizin al-qanı və qazilərimizin qəhrəmanlığı hesabına ay-ulduzlu, üçrəngli bayrağımız indi bütün Qarabağ və Şərqi Zəngəzurda dalğalanır. İlham Əliyevin siyasi xətti özündə əvvəlki siyasətçilər sülaləsindən köklü şəkildə fərqlənən novator, proqressiv və mahiyyət etibarilə tam fərqli prinsipləri ehtiva edir".

Partiya sədri vurğulayıb ki, İlham Əliyev ona dövlət hakimiyyətində mühüm bir post etibar edildiyi gündən məhsuldar və effektiv fəaliyyəti ilə şəxsiyyətinə ümumxalq marağı, dərin inam və məhəbbət oyatmağı bacarıb: "Bu inamı qidalandıran, ona yaşamaq hüququ verən əsas amil isə Prezidentin öz vəzifəsinə sıradan məqsəd kimi deyil, millətinə və dövlətinə sədaqətli dövlət xadimi kimi xidmət etməyə geniş imkanlar açan ali vasitə kimi yanaşmasıdır".

### Xalqın etibarlı Lideri

**Milli Məclisin deputatı, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə** qeyd edib ki, Azərbaycan dövlətinin inkişafına əvəzsiz xidmət göstərən Prezident İlham Əliyevə etimad artırıb: "Enerji və beynəlxalq logistika-nəqliyyat sahəsində həyata keçirdiyi layihələri, ən əsası isə 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etməsi Prezident İlham Əliyevi dünya səviyyəsində çox önəmli bir siyasi liderə çevirib. Prezidentin çoxşaxəli islahatlar siyasəti 2003-cü ildən bəri həyata keçirilir və öz bəhrəsini verir. Ölkə rəhbərinin Azərbaycanı müasir və demokratik dövlətə çevirmək üçün atdığı addımlar dövlətimizin daxili və xarici siyasətinin inkişafı baxımından, çox mühümdür. Bütün bunların nəticəsidir ki, dövlət başçımız bu gün Azərbaycanın dinamik inkişafına nail olub, ölkə sürətlə yenilənir".

Partiya sədrinin sözlərinə görə, Prezidentin siyasi arenada tətbiq etdiyi yeni siyasi konfiqurasiya da öz müsbət nəticələrini göstərir: "Ölkənin bütün siyasi partiyalarının fəallığının artırılması istiqamətində mühüm addımlar atılır. Bununla yanaşı, sosialyönümlü siyasəti, xüsusilə də Qarabağı işğaldan azad etməsi nəticəsində xalqın Prezidentə sevgisi və etimadı dəfələrlə artıb. Əminəm ki, cənab İlham Əliyevin bundan sonrakı fəaliyyəti də Azərbaycan xalqının rifahını yaxşılaşdıracaq və dövlətimizi daha da möhkəmləndirəcək. Fürsətdən istifadə edərək Prezidenti İlham Əliyevi doğum günü münasibətilə təbrik edir və ona gələcək fəaliyyətində uğurlar arzulayıram".

### Tarix İlham Əliyev şəxsiyyətinin dəyərini daha dəqiq göstərəcək

**Milli Məclisin deputatı, Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Fazil Mustafa** bildirib ki, İlham Əliyev öz tarixi missiyasını uğurla yerinə yetirmiş dövlət başçısıdır: "Bir çox dövlət başçıları islahatçı ola, cari məsələlərin həllində böyük rol oynaya, müəyyən siyasətlə ölkəni böhrandan çıxara bilər. Yəni bunların hər biri müsbət siyasi fəaliyyətin əsas göstəriciləri hesab edilir. Lakin hər prezidentə 200 illik bir problemi cəmi 44 gün ərzində həll edə bilmək nəsib olmur. İlham Əliyevə tarixdə veriləcək dəyər ilk növbədə elə bu faktla bağlı olacaq. Torpaqlarımızın 30 illik işğaldan sonra azad edilməsi Azərbaycanın dirilişi və yenidən canlanması üçün təməl faktor idi. Bunu da məhz İlham Əliyev bacardı".

Partiya sədrinin sözlərinə görə, dövlət başçımız ölkəmizin beynəlxalq arenada coğrafi kiçikliyini nüfuzunun böyüklüyü ilə əvəz edə bilib: "Azərbaycan dünya xəritəsində kiçik yer tutsa da, məhz İlham Əliyevin fərdi fəaliyyəti nəticəsində siyasi çəkisinə görə dünyada ağırlığını qoyan dövlətlərdən birinə çevrilib. Azərbaycanın Şərq və müsəlman dövləti olduğunu nəzərə alsaq, bizim modern dünyada dünyəvi modeldə söz sahibinə çevrilməyimiz olduqca önəmli tarixi hadisə hesab edilməlidir. İlham Əliyev həm də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, dönməz xarakter alması istiqamətində vaxtında qabaqlayıcı addımlar atıb. Misal üçün, ölkəmizin enerji resurslarının Avropa bazarına çıxarılması bu qəbildəndir. Üstəlik, enerji ehtiyatlarımızın ölkə daxilində hansısa xaos vasitəsinə çevrilməsinə imkan verməyib. Nəzərə almaq lazımdır ki, müasir dünyamızda enerji ehtiyatlarına sahib ölkələrin bir çoxu təlatüm içərisindədir. Amma Azərbaycan belə deyil, sabit ölkədir. Yəni bu məsələdə də Prezidentimizin böyük rolu danılmazdır".

F.Mustafa onu da deyib ki, hər bir siyasi xadimə müxtəlif baxış sərgilənə bilər: "Əslində, bu, baxanların nə umduğu ilə birbaşa əlaqəlidir. Yəni ayrı-ayrı adamlar İlham Əliyevin siyasi xəttindəki müxtəlif müsbət çalarları qabarda bilərlər. Mən isə İlham Əliyevin hakimiyyəti dövrünə tarixi aspektdən baxmağı üstün tuturam. Yəni sual edirəm ki, tarix 50-100 il sonra bu qətiyyətli sərkərdə barədə nə deyəcək?! Əminəm ki, 100 il sonra tarix Azərbaycan xalqının bir çox problemlərinin məhz bu gün durduğumuz nöqtədə həll edildiyini özəl olaraq vurğulayacaq. O zaman İlham Əliyev şəxsiyyətinin dəyəri daha dəqiq bilinəcək. İnanıram ki, Prezident İlham Əliyev öz ali missiyasını bundan sonra da uğurla davam etdirəcək".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*